AÇIQLAMA

# Azərbaycanın hərbi sənayesinin inkişafı

**2020-ci il sentyabrın 27-də başlayan və Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatan Vətən müharibəsində yüksək texnologiyalı silah sistemlərinin uğurlu tədbiqi hərbi əməliyyatların taleyinin qısa müddətdə həllinə imkan verdi. 44 gün davam edən döyüş əməliyyatlarında Azərbaycan Ordusu sərəncamındakı müasir silahlardan, o cümlədən idarə olunan raketlər və pilotsuz uçuş aparatlarından uğurla və koordinasiyalı şəkildə istifadə etdi. Əməliyyatlarda Azərbaycanın hərbi sənayesinin istehsalı olan bir sıra silah və texnikalardan da səmərəli istifadə olundu.**



Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad zamanı nümayiş etdirilən texnikalar isə Azərbaycan Silahlı Qüvvələrinin çoxşaxəli, müasir və inteqrasiya olunmuş döyüş potensialını aydın şəkildə əks etdirir. Paradda zirehli avtomobillərdən tutmuş uzaqmənzilli raket komplekslərinə, hava hücumundan müdafiə sistemlərindən tutmuş yüksək dəqiqlikli pilotsuz uçuş aparatlarına, artilleriya sistemlərinə qədər geniş spektr müşahidə olunub. Bu müxtəliflik ordunun eyni zamanda həm müdafiə, həm də əməliyyat-taktiki hücum funksiyalarını effektiv həyata keçirməsinə imkan verir.





***Hərbi ekspert Ramil Məmmədli mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,*** ölkəmizdə son illərdə formalaşan hərbi sənaye kompleksi hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur: "Dünyanın bir sıra ölkələri ilə birgə layihələr icra edən Azərbaycanda hazırda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Həmin məhsullar arasında pilotsuz uçuş aparatları, o cümlədən məşhur "İti qovan" PUA-lar, həmçinin "Zəfər", "Zəfər-K", "İnam" tapançaları, PKT, PKM pulemyotları, "Mübariz", "İstiqlal", "Yalquzaq", "Yırtıcı" snayper tüfəngləri, "Boran" artilleriya qurğusu, "Qaya" tank əleyhinə əl qumbaraatanları, "Komando" tipli "Aşırım" minaatanları, "Matador" və "Marauder" zirehli hərbi texnikaları və s. xüsusi yer tutur. Yeri gəlmişkən, bütün bunlar dünya müdafiə sənayesi sektorunda ən qabaqcıl silah və texnikalar kimi dəyərləndirilir.



Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Məsələn, bu ilin fevral ayında Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "IDEX-2025" Beynəlxalq Müdafiə Sərgisində Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendində Azərbaycanın istehsal etdiyi atıcı silahlar, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, optik nişangah və cihazlar, pilotsuz uçuş aparatları və s. daxil olmaqla 100-ə yaxın müdafiə təyinatlı məmulat nümayiş etdirilib. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb".



Hərbi ekspert daha sonra vurğuladı ki, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı bildirdi ki, ölkəmizdə hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir: "Eyni zamanda, bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda, mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar". Dövlətimizin başçısı əminliklə vurğuladı ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər: "Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın". Dövlətimizin başçısı, həmçinin Azərbaycan alimlərini də bu istiqamətdə çalışmağa dəvət edib. Şübhəsiz, həm dövlət, həm də özəl şirkətlər Prezident İlham Əliyevin bu çağırışına yekdilliklə səs verəcək, Azərbaycan alimləri ilə geniş şəkildə əməkdaşlıq etməklə ölkəmizdəki texnoloji inkişafı daha da sürətləndirəcəklər. Bu mənada birmənalı şəkildə vurğulamaq olar ki, müdafiə sənayesinin təməlini qoymuş və inkişaf etdirilməsi sahəsində də mühüm işlər görmüş Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısı nəticəsində ölkəmizdə daha güclü müdafiə sənayesi formalaşacaq. Yeri gəlmişkən qeyd edək ki, respublikamızın müdafiəsini təmin edən ordunun maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 2003-cü ildə Ulu Öndər tərəfindən "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003-2005-ci illərdə inkişafına dair Dövlət Proqramı" təsdiq edilib. Bu proqramda hərbi sahədə kənardan asılılığın azaldılması və Silahlı Qüvvələrimizin yeni məhsullarla təminatı nəzərdə tutulurdu. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamına əsasən, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi ləğv edilib və onun bazasında Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Məhz bundan sonra respublikamızda bu sahənin inkişafı tamamilə yeni mərhələyə qədəm qoyub".

Müsahibimiz, həmçinin qeyd etdi ki, şübhəsiz, bütün bunlar milli hərbi sənayemizin daha sürətli inkişafı ilə yanaşı, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun, güc və qüdrətinin daha da yüksəlməsinə səbəb olacaq.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***



